## ◆ Lutviyye Esgerzade

# Dünya Baştan Başa Nagılmış

Gecələr göylərə baxıb dalıram
Baxırsan göylərə hardasa sən də.
Ay da kədərlidir, qəlbim yandırır.
Bu gecə Ay mənə səni andırır.

Hələ də aramsız yağışlar yağır,
Yağış torpağa yox, ruhuma yağır.
Yağan yağış səsi "Yanıq Kərəmi,
Üstüm qəm, qüssə, göz yaşı yağır.

Yağışa baxıram, sənsən gözümdə,
Yağan yağış deyil, sənsən önümdə.
Tökülür çiynimə bu yağan yağış,
Damlalar necə də tanışdır, tanış.

Çıxıram şəhərə, şəhər mənə yad,
Ağlayır ürəyim, qəlbimdə təzad.
Bilməzdim sinəmdə ürəkdi, daşdı,
Qəlbimə gizlicə yazılınca ad...

Qarşımda durardın şahzadə kimi,
Mən səni sevirdim, divanə kimi.
Dalıb sevgimizin ulviyyətinə,
Uyuya bilməzdim sabaha kimi.

Məhəbbət və sevgi var imiş demə,
Ürəkdən sevənlər qalırmış demə.
Əsil sevgi daim əfsanə olmuş,
Dünya başdan başa nağılmış demə.